# Ön və Mərkəzi Asiya türk xalqlarının miqrasiya və xalqların Böyük Köçündə iştirakının tədrisinin səmərəli yolları

**Günel Elsevər qızı Hüseynova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** gunel-huseynova-2000@list.ru

**Rəyçilər:** dos. P.Ş. Səfərov,
p.ü.f.d., dos. D.M. Musayev

**Açar söz:** təhsil, tədris, mahiyyət, miqrasiya, təlim texnologiyaları, türk xalqları
**Ключевые слова:** образование, преподавание, сущность, миграция, технологии обучения, тюркские народы.
**Key words:** education, teaching, essence, migration, learning technologies, Turkish nations

Ön və Mərkəzi Asiya türk xalqlarının miqrasiya və Xalqların Böyük Köçündə iştirakının tədrisi mövzusunun tarixi əhəmiyyəti tarix dərslərində açılırsa, metodik əhəmiyyəti, tədris olunma yolları Tarixin tədrisi metodikası fənninin tədrisi zamanı işıqlandırılır. Tədris zamanı ilk öncə məqsəd müəyyən edilməlidir; Nəyi tədris etməli?, Necə tədris etməli?, Nə üçün tədris etməli?

Müasir dərsin əsas şərtlərindən biri planlaşdırmadır. Planlaşdırma təlimin məqsədlərinin müəyyənləşməsindən başlanır. Dərsin səmərəliliyini təmin edən ən başlıca və mühüm amil təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsidir (1, s. 390). Mövzunun tədrisinin həyata keçirilməsində ən mühüm və mürəkkəb mərhələ motivasiyadır. Dərsin sonrakı gedişi motivasiyanın nə dərəcədə uğurla yaradılmasından asılıdır.

“Bir sıra fərziyyələri törədən problemli vəziyyət idrak motivasiyasının meydana gəlməsinə təsir göstərən əsas faktordur. Bundan əlavə bir sıra başqa faktorlarda mövcuddur ki, onların nəzərə alınması da motivasiyanın yaradılmasına kömək edir:

- Motivasiya qismində istifadə olunan materialın xüsusiyyətləri cəlbedicidir, müəmmalıdır, marağı və müstəqil təfəkkürü şövqləndirməyə qabildir;
- Fərziyyələri yoxlama və təqdimat aparma imkanının mövcudluğu;
- Yaradıcılıq imkanı;
- Materialın təqdim olunma üsulları və formaları;
- Əvvəlki məşğələlərdə fərziyyələrin irəli sürülməsi ilə bağlı müsbət emosiyalar təcrübəsi [2, s. 50].

Müəllim motivasiyanı 3 yol ilə yarada bilər:

1. Simvolik materialların şərhi ilə (rəsm, foto-şəkil, simvol, qrafik, sxem, ədəbi əsərdən parka);
2. Sual verməyə həvəsləndirməklə:

a) Mövzu ilə bağlı naməlum məsələləri müəyyənləşdirən suallarla;
b) Açıq suallar, yəni iki və daha çox variantı olan suallardan istifadə etməklə;
c) Öyrənilən mövzuya aid suallarla.

3. Problemin müxtəlif yollarla həll edilməsi yolu ilə.

Ön və Mərkəzi Asiya türk xalqlarının miqrasiya və Xalqların Böyük Köçündə iştirakının tədrisi zamanı ilk öncə müəllim Xalqların Böyük Köçü haqqında aşağıdakı kimi məlumat ver-

məlidir:

Böyük Hun İmperiyası dağıldıqdan sonra IV əsrdə hun tayfaları tərəfindən Altay da başlayıb və Avropaya tərəf yayılaraq 300 ildən çox davam edən yürüş tarixdə Xalqların Böyük köçü adı ilə formalaşmış və tarixdə mühüm iz qoymuşdur. Böyük Köçdə iştirak edən xalqlar haqqında izahlı oxu vasitəsilə tələbələrdə təsəvvürlər yaradılmalıdır: Erkən orta əsrlərdə türkdilli etnoslar hun ittifaqında birləşmişdilər. Bu ittifaqa bir çox türk etnosları, o cümlədən xəzər, kəngər, peçenaq, bulqar, qıpçaq, sabir, utiqur, onoqur, uz, barsil tayfaları daxil idi.

Dərs zamanı mövzu ilə bağlı əsas anlayışlar müəyyən edilməli və tələbələrə bu anlayışlar izah edilməlidir.

Mövzunun tədrisi zamanı ilk rast gələn anlayış miqrasiya anlayışıdır. Miqrasiya və ya köçetmə - insanların daimi və ya müvəqqəti yaşayış yerlərini dəyişməsidir. Daha sonra Böyük Köçün interaktiv qaydada səbəbləri müəyyən edilir. Bunun üçün müəllim diskussiyalar, disputlar da təşkil edə bilər. Verilən cavablar əsasında nəticə çıxarılaraq qrafiklərlə göstərilə bilər (şəkil 1).

Hunların köç etməsinin əsas səbəbləri




**Şəkil 1.**

Mövzunun tədrisində xəritələrdən geniş şəkildə istifadə edilməlidir. Bu zaman aşağıdakı məlumatlar təhlil olunur: Hunlar 374-cü ildə Don çayını keçdilər, Terek və Kuban ərazilərində yaşayan alanları məğlub edərək tabe etdilər Dneprdən qərbdə isə ostqotlara hücum etdilər. Dnestr çayı sahilində isə vestqotlara hücum etdilər. Müəllim mətni izah edərkən xəritə ilə birgə iş aparmalıdır. Xəritədə Don çayı, Terek, Kuban, Dnestr çayı əraziləri göstərilməlidir.

Ön və Mərkəzi Asiya türk xalqlarının miqrasiya və Xalqların Böyük köçündə iştirakının tədrisi zamanı tarixi materialların öyrənilməsində sosial münasibətlərə, tarixilik, elmilik və obyektivlik prinsiplərinin əsas göstərilməsinə diqqət edilməlidir.

Tədris zamanı müəllim dünya təcrübəsində yayılmış və özünü doğrultmuş yeni təlim metodlarından və texnologiyalarından – diskusiya, debat, disput, konfrans, müsabiqə və interaktiv təlim üsullarından istifadə edə bilər. Tədris prosesində interaktiv təlim üsullarından istifadə zamanı aşağıdakılar həyata keçir:

a) mövzu daha yaxşı mənimsənilir;
b) məntiqi təfəkkür inkişaf edir;
c) təşəbbüskarlıq inkişaf edir;
d) müəyyən bir məsələyə müxtəlif aspektdən yanaşılır.

Fənnin tədrisi zamanı müəllim tələbələri qruplara bölərək iş təşkil edir. Bir qrupa Böyük Köçdə iştirak edən xalqlar, ikinci qrupa Böyük Köçün səbəbləri, üçüncü qrupa isə Böyük Köçün nəticəsi mövzu olaraq verir. Sonda hər qrup çıxış etdikdən sonra müəllim suallar verib

ümumiləşdirmələr aparır.

Mövzunun tədrisi zamanı istifadə olunan metodlar nəticəsində tələbələr tarixi qanunauyğunluğu daha tez başa düşür və tarixə obyektiv yanaşırlar.

Mövzunun tədrisində - tarixi həqiqətlərin dərk edilməsi prosesi mühüm rol oynayır. “Tarixçi faktları müqayisə etməklə bu faktların arasındakı mühüm əlaqə və münasibətləri: ümumi və fərqli cəhətləri ardıcıllıq, dəyişkənlik, onların səbəbləri, nəticələri və s. tələbələrlə təhlil edir, şərh edir. Təhlil yolu ilə açılan tək-tək faktların mühüm xassələrini, onların arasındakı səbəb-nəticə əlaqələrini və digər əlaqələri ümumiləşdirməklə tarixçi dövrün və bütövlükdə ictimai-iqtisadi formasiyanın xarakter xüsusiyyətlərini aşkar edir, onları anlayışlar sistemində ifadə edir (1, s. 133).

Təqdimat fəal təlim metodları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Təqdimat şifahi yazılı, vizual və s. formalarda ola bilir.

Ön və Mərkəzi Asiya türk xalqlarının miqrasiya və Xalqların Böyük köçündə iştirakının tədrisi zamanı dərsin təqdimatlarla keçirilməsi, təqdimat zamanı elektron xəritələrdən istifadə edilməsi, tarixi köçün xəritə üzərində sxemlərlə göstərilməsi dövrün sosial-iqtisadi-mədəni həyatı ilə bağlı şəkillərin təqdim edilməsi tələbələrin daha dərin təsəvvürlərə və biliklərə yiyələnməsinə kömək edir.

Təqdimatın keçirilməsində məqsəd:

- Tədqiqat fəaliyyətinin nəticələrini müxtəlif yollarla təqdim etməyi;
- Öz fikrini dəqiq ifadə etməyi;
- Mükəmməl nəticə çıxarmağı öyrətmək (2, s. 89).

Fəal təlimdə yaradıcılıq böyük əhəmiyyət kəsb edir. Yaradıcılıq hər hansı bir yeniliyin yaradılmasına yönəldilmiş prosesdir (3).

Ali məktəb tələbələrində tarix dərslərində idrak fəallığının inkişaf etdirilməsi şərtdir. Bu tələbələri yaradıcı öyrənməyə, özünün, gələcəyinin yaradıcısı olmağa təşviq edir. Tələbələrin idrak fəallığının formalaşdırılması tədris prosesində tələbələrin yaradıcılıq dərəcəsinin yüksəldilməsində son dərəcə vacibdir. Tələbələrdə idrak fəallığının tənqidi, yaradıcı, məntiqi düşüncə proseslərinə sövq etməklə təhrik etmək olar. B. Lahey, L. Lefton, R. Malott, R. Plotnik, Ə.K. Zəkuyev, F.Ə. İbrahimbəyov, Əli Əlizadə və digər psixoloji nəzəriyyətçilər tənqidi düşünməyə, fikirlərimizi, hisslərimizi və davranışlarımızı aydınlaşdırmaq və inkişaf etdirmək üçün düşünmək və qiymətləndirmək kimi baxırlar (5).

Təhsil nəzəriyyəçiləri tələbələrin tənqidi düşünmək meylinin əsas amil olduğunu qəbul edirlər. Beləliklə tələbələr maraqlanmağa, suallar verməyə və onlara söylənilən hər şeyə inanmamağa təşviq edilməlidir.

Tədris prosesində müəllimin pedaqoji qabiliyyətləri içərisində təşkilatçılıq əsas yer tutur. Görkəmli pedaqoq A. S. Makarenko tərbiyə işini ilk növbədə təşkilatçılıq işi adlandırırdı. “Bu bir həqiqətdir ki, təşkilatçılıq işinin zərif olması təkcə bir dərsdə, bir prosesdə deyil, bütün müəllimlərin fəaliyyətində öz mənfi təzahürlərini göstərir (4, s. 125). Müəllimin təşkilatçılıq fəaliyyəti təhsil alanların fəaliyyətindən, həm də bu fəaliyyətin nəticələrindən asılı olur. Təşkilatçılıq fəaliyyətinin məzmununu aşağıdakı kimi ümumiləşdirə bilərik:

— tələbələrin qarşısında məqsəd, vəzifə və problemlərin qoyulması;
— fərd, qrup və kollektivin görəcəyi işlərin müəyyənləşdirilməsi;
— pedaqoji prosesin “subyekt-subyekt” əməkdaşlığı şəraitində təşkili;
— qrup, kollektiv və ayrı-ayrı fərdlərin özünüinkişafa şərait yaradılması;
— tələbələrin müzakirəyə cəlb edilməsi;
— nəticələrin ümumiləşdirilməsi, qiymətləndirilməsi və s.

Beləliklə, interaktiv təlim metodlarının tədbiqi ali məktəb tələbələrinin təlim-tərbiyəsinin təkmilləşdirilməsi üçün ən vacib istiqamətlərdən biridir.

**Məqalənin aktuallığı.** Məqalədə əldə edilən nəticələr irəli sürülən fikirlər tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirmək üçün xüsusi əhəmiyyətə malikdir.

**Məqalənin elmi yeniliyi.** Ali məktəblərdə "Türk xalqları" tarixinin fəal təlim metodları ilə tədrisinin vacibliyi ilə əlaqədar səmərəli fikirlər irəli sürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali məktəblərdə fənnin interaktiv metodlarla tədrisində əldə olunan nəticələr faydalı təkliflər kimi səciyyə daşıyır və digər fənlərin tədrisində istifadə oluna bilər.

## Ədəbiyyat

1. M.M. Əmirov. Ümumitəhsil məktəblərində tarixin fəal interaktiv təlimi metodikası. Bakı, 2014.
2. Z. Veysova  Fəal interaktiv təlim. Bakı, 2007.
3. T. Paşayev T. Tarixin tədrisi: tarixilik və müasirlik: Monoqrafiya. Bakı, 2006.
4. M. İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri. Bakı, 2018.
5. Watson – Glaser Critical Thinking Appraisal User–Guide and Technical Manuel. London: Pearson Education Ltd., 2012, 88 p.

**Г.Э. Гусейнова**

## Эффективные способы обучения миграции и участию тюркских народов Средней Азии в Великом переселении

## Резюме

Статья посвящена применению интерактивных методов в обучении истории тюркских народов в вузе. Внимание было обращено на взгляды и мнения различных методистов по этой проблеме. В статье представлены различные интерактивные методы обучения, которые показывают их эффективность на практике и важность для студентов вузов.

**G.E. Huseynova**

## Effective ways of teaching the migration and participation of the peoples of Central and Eastern Asia in the Great Migration

## Summary

The article is devoted to the application of interactive methods in teaching the history of the Turkish nations at the university. Attention was paid to the views and opinions of various Methodists on the problem. The article presents various interactive teaching methods that show their effectiveness in practice and their importance for university students.

**Redaksiyaya daxil olub:** 27.04.2022